AZƏRBAYCAN www.azerbaijan-news.az

# Uşaq hüquqları ilə bağlı qanunvericilik təkmilləşdirilir

Aprelin 21-də Milli Məclisdə "Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə dair qanunvericiliyin inkişaf perspektivləri" mövzusunda "dəyirmi masa" keçirilmişdir. Parlamentin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin UNİCEF-lə birgə təşkil etdiyi tədbirdə ölkəmizdə insan hüquqları və eləcə də yetkinlik yaşına çatmayanların mühakiməsinə dair mövcud durum müzakirə edilmişdir.

Milli Məclisin Sədr müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova demişdir ki, Azərbaycanda insan hüquqları və onun tərkib hissəsi olan uşaq hüquqları ən vacib prioritet istiqamətlərdən biri kimi ölkədə həyata keçirilən siyasətin aparıcı sahələrindən sayılır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkədə öncə insan hüquqları, uşaq hüquqları ilə bağlı işlər görülməyə başlanılmışdır. Nəticədə Azərbaycan dövləti, ali qanunverici orqan olan Milli Məclis insan, eləcə də, uşaq hüquqlarının təmin edilməsi, bu yöndə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində böyük uğurlara nail olub. Ölkəmiz bu yöndə beynəlxalq sazişlərə və konvensiyalara qoşulub, özünün milli qanunvericiliyini yaradıb, təkmilləşdirib".

Bahar Muradova UNİCEF-in Azərbaycandakı nümayəndəliyi ilə uğurlu əməkdaşlığa nail olunduğunu vurğulayaraq qeyd etmişdir ki, uşaq hüquqlarının təmin edilməsi istiqamətində bu qurumla bundan sonra da geniş əməkdaşlıq, silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulub.

UNİCEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Andro Şilakadze bildirmişdir ki, təmsil etdiyi qurum Azərbaycanda yetkinlik yaşına çatmayanların, xüsusilə 18 yaşdan aşağı olanların



azadlıqdan məhrumetmə cəzasının yüngülləşdirilməsini və cəza ilinin azaldılmasını istəyir. Onun sözlərinə görə, 10 illik cəza müddəti ən azı 8 ilə endirilməlidir. Andro Şilakadzenin sözlərinə görə, Qərbdə, Avropa ölkələrində yetkinlik yaşına çatmayanların azadlıqdan məhrumetmə cəzası 6 ildən çox deyil. A.Şilakadze, həmçinin vurğulamışdır ki, Azərbaycanda insan hüquqları, o cümlədən uşaq hüquqlarının təmin edilməsi, bu yöndə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində uğurlu addımlar atılır: "Uşaq hüquqları ilə bağlı ən vacib sənəd BMT-nin Uşaq hüquqları Konvensiyasıdır. Konvensiyanın 37-ci maddəsində də uşaqlarla, yetkinlik yaşına çatmayanlarla bağlı ən son addım kimi onların azadlıqdan məhrum edilməsi nəzərdə tutulur. Bu onu göstərir ki, müəyyən hüquq pozuntularına yol vermiş uşaqları, yetkinlik yaşına çatmayanları nəinki istintaq altında, təcridxanalarda saxlamaq, əksinə, onları yenidən cəmiyyətə, ailəyə qaytarmaq lazımdır. Onların azadlıqdan məhrum edilməsi ən son addım kimi seçilməlidir və bu məsələdə yüngülləşdirici hallar nəzərdə tutulmalıdır. Məsələn, Braziliyada aparılan araşdırmalar nəticəsində məlum olub ki, istintaqa cəlb olunmuş 65 uşağın saxlanılması xərcləri 140 uşağın normal təhsil almasına çəkilən xərcə bərabərdir.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin təmsilçisi Yorun Villems isə demişdir ki, bu gün, ümumiyyətlə, Avropada uşaqların 90 faizi yoxsulluq riski altındadır. Onların hüquqlarının pozulması riskləri gündən-günə artır: "Uşaq hüquqlarının təmin edilməsi, bu yöndə qanunvericiliyin təkmilləşdirilməsi və onun icrasına nəzarətin gücləndirilməsi çox aktual məsələdir. Hesab edirik ki, uşaq hüquqlarının təmin edilməsi ilə bağlı ədliyyə sistemində islahatların sürətləndirilməsinə ehtiyac var".

Yorun Villems daha sonra qeyd etdi ki, hazırda dünya əhalisinin üçdə birini, Avropa əhalisinin beşdə birini uşaqlar təşkil edir. Azərbaycanda da əhalinin 40 faizi uşaqlar, yeniyetmələr, 25 yaşdan aşağı olanlardır.

"Dəyirmi masa"nın moderatoru, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli vurğuladı ki, Azərbaycanda çox həssas məsələ olan uşaq hüquqları mövzusuna hər zaman diqqətlə yanaşılıb. Bu istiqamətdə həm Azərbaycan hökuməti, həm də ali qanunverici orqan olaraq Milli Məclis ardıcıl, sistemli tədbirlər həyata keçirib. Komitə sədrinin sözlərinə görə, məhz bu addımların, görülən işlərin sayəsində uşaq hüquqlarının təmin edilməsi ilə bağlı həm yaxşı nəticələr, həm də yaxşı, mükəmməl qanunvericilik bazası var. Ancaq praktika zaman-zaman müvafiq qanunvericilikdə müəyyən dəyişikliklər edilməsini də tələb edir. Bunlar da edilir və ediləcəkdir.

UNICEF-in milli eksperti Nazir Quliyev isə bildirmişdir ki, hazırda təşkilat Avropa İttifaqının dəstəyi ilə Azərbaycanın yeddi rayonunda hüquqi xidmətlər həyata keçirir. O, yetkinlik yaşına çatmayanların ədalət mühakiməsinə dair qanunvericilik və onun tətbiqinin inkişafı istiqamətində təkliflər paketini təqdim edib. Belə ki, Cəzaların İcrası, Cinayət, Cinayət Prosessual məcəllələrinə dəyişikliklər edilməsi təklif olunub. Məsələn, cinayət törətmiş yetkinlik yaşına çatmayanların maksimum cəza müddətinin 10 ildən 8 ilə endirilməsi təklifi irəli sürülüb.

Müzakirələr zamanı çıxış edən parlamentin İnsan hüquqları komitəsinin üzvü Əflatun Amaşov bildirdi ki, bu günlərdə Milli Məclisdə "KİV haqqında qanun"a dəyişiklik ediləcək. Bu dəyişiklik məhz yetkinlik yaşına çatmayan uşaqların hüquqlarının müdafiəsi üçün nəzərdə tutulmuşdur. Komitənin üzvü Çingiz Qənizadə qeyd etdi ki, Cinayət Məcəlləsindəki sanksiyalarla bağlı islahatlara ehtiyac var. İslahatlar nəticəsində çəzaçəkmə müəssisələrindəki məhkumların sayı da xeyli aşağı düşəcək. Komitənin digər üzvü Rafael Cəbrayılov isə cinayət törətmiş yetkinlik yaşına çatmayanların maksimum cəza müddətinin 10 ildən 8 ilə endirilməsi təklifi ilə razılaşmadığını bildirdi.

"Dəyirmi masa"da müzakirələr zamanı çıxış edənlər həm özləri təkliflər irəli sürmüş, həm də UNİCEF-lə Avropa İttifaqının təkliflərinə münasibət bildirmişlər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***